# «ZAMANIN RƏNGLƏRİ»

## PUBLİSİSTİN DÜŞÜNCƏ MÜSTƏVİSİNDƏ

### *I. «Çarpışan zaman»da imkanlar və iddialara münasibət*

## 3. Açıq danışmaq cəsarəti

***Cəmiyyətlə, yəni ictimai-siyasi mühitlə açıq danışmaq, bütün zamanlarda və demək olar ki, dünyanın bütün ölkələrində problem olub. Doğrudur, dünyanın inkişaf etmiş ölkələrinin böyük əksəriyyətində demokratiyanın inkişafı ilə cəmiyyət və opponent münasibətləri tənzimlənib. Yeni demokratik dünya düzənində öz yerini tutmaqda olan, sosializm düşərgəsinin dağılması ilə azad nəfəs almaqda olan ölkələr də çoxlu problemlərlə qarşılaşsa belə cəmiyyət və opponent məsələsində yeni dialoq müstəvisini yaratmaqdadır. Təəssüf ki, bunu hələ də Şərq və əsasən müsəlman ölkələri haqqında demək çətindir. Məqsədimiz Şərq və müsəlman ölkələrində cəmiyyət və opponent probleminin mövcud vəziyyətini çözmək deyil. Bizim indiki durumda məqsədimiz postsovet məkanının fonunda Azərbaycan məkanı üçün cəmiyyət və opponent məsələsinə münasibət bildirməkdir. Bu münasibəti düzgün şərh etməyin bir yolu da məsələyə əks tərəfdən yanaşmaqdır. Yəni cəmiyyətlə açıq danışmaq istəyən opponenti nə gözləyir?***

***Hadisələri düzgün qavramaq gücü olan opponent cəmiyyətlə açıq danışanda həqiqəti yox, mənsub olduğu siyasi düşərgənin mənafeyini güdənlərin kəskin təzyiqinə məruz qalır. Ən müxtəlif yollarla belələrini ümumi işə xəyanətdə, milli mənafeyə dönüklükdə ittiham edir, açıq danışmaq cəsarəti olanın müstəqil söz demək imicinə ən müxtəlif tərəflərdən zərbə vurulur. Bir çox hallarda cəmiyyətlə açıq danışmaq istəyən karyerası ilə vidalaşmağa məcbur olur, gözdən salınır, tədricən unudulmuşlar sırasına keçir.***

***Ancaq xüsusi imici olan, özünə güvənci olan bütün hallarda proseslərə iradəsi ilə sağlam mövqeyini qoruyan opponenti asanlıqla sıradan çıxarmaq mümkün deyil.***



*Əli Rza XƏLƏFLİ*

> *Qulu Məhərrəmlidə güclü həqiqət hissi var, onu təkcə parlaq istedadına, peşəkarlığına görə yox, həm də həiqətə sadiqliyinə, milli köklərə bağlılığına, peşəkar jurnalist olduğuna görə sevirlər.*
>
> **Bəxtiyar Vahabzadə,**
> **Xalq şairi**

Cəmiyyət və opponent probleminin hələ də tamamilə həll olunmadığı Azərbaycanda açıq danışmağın çətinliklərini Qulu Məhərrəmli yaxşı bilir. Xüsusilə, söhbət 90-cı illərin birinci yarısından gedirsə, deməliyik ki, o dövrdə açıq danışmaq opponent üçün ikiqat cəsarət tələb edirdi.

Siyasi-mənəvi mühitə özünün xüsusi hazırlığıyla gəlmiş Qulu Məhərrəmli istedadlı və çevik düşüncə adamı kimi siyasi hadisələrə birbaşa və aydın münasibət bildirməkdən çəkinmirdi. Əlbəttə, onun mövqeyini etirazla qarşılayanların hamısını eyni müstəvidə qaralmaq olmaz. Çünki hadisələrin kəskin, siyasi ziddiyyətlər fonunda cərəyan etməsini düzgün qavramaq hamı üçün eyni dərəcədə asan olmur. Belələrinin bir çoxu sadəcə, bilməməzlikdən, sadəlövhlükdən cəmiyyət və opponent probleminə düzgün yanaşa bilmir. Amma müəyyən qrup da var ki, tənqidi münasibəti qəsdən, bilərəkdən qərəzlə qarşılayır. Və bu yerdə məqamı çatdığı üçün yerinə düşür deyək ki, Qulu Məhərrəmli üçün (və ümumən onun kimi siyasi şərh biliciləri üçün) kimin necə münasibət göstərməsinin elə də prinsipial fərqi yoxdur.

Fikirlərimizi Qulu Məhərrəmlinin öz yazıları əsasında şərh etməyə çalışacağıq.

**Yaşa, var ol, doğma, əziz Rusiya!** ***«Yeni dünya» 20 iyul, 1995***

Əvvəlcə onu deyək ki, bundan əvvəlki yazı ilə (6 iyul, 1995) bu yazının arasındakı zaman məsafəsi iki həftədir. Bu müddətdə Qulu Məhərrəmli siyasi mühitdə Şimaldan əsən küləyin yaratdığı dalğanı müşahidə edib. Bu dalğa nə dərəcədə təsir gücünə malikdir? Hansı yeniliyi gətirə bilər? Adətən, dalğa fırtınaya çevriləndə dənizi təmizləsə də, onun aşağılarına hopmuş çirkabı da sahilə atır.

Qulu Məhərrəmli yazısına kəskin münasibətlə başlayır: *«Rusiya Federasiya Şurasının sədri V.Şumeykonun Azərbaycana səfəri və bu səfərin gedişində keçirilən görüşlər zamanı alovlu nitqlərdən yalnız başlıqda göstərilən şüar əskik idi. Məzlum qaçqınlarla keçirilən görüşlər zamanı çıxış edənlərin «Rusiya bizə çox yaxşılıqlar edib» alqışları ağlı başında olan insanlar üçün bıçaq zərbəsi qədər ağrıdıcı görünürdü. Axı belə toplantılarda Rusiyanın şərəfinə sağlıqlar deyən bu biçarələr hələ də anlamaq istəmirlər ki, indi miskin vəziyyətə düşmələrinin də, yurd-yuvalarının viran qoyulmasının da əsas günahkarı Ermənistanla yanaşı, həm də Rusiyadır. Əlbəttə, müəyyən diplomatik məqsədlər üçün Azərbaycanın Rusiyaya məhəbbətini ifadə edən daha uğurlu toplantılar təşkil etmək olardı. Mitinqə toplaşmış Zəngilan, Qubadlı, Ağdam və digər bölgələrin qaçqınları olsa-olsa Şumeykonun təmsil elədiyi dövləti qeyri-insani əməllərinə görə yalnız ittiham etməliydilər. Bunda işimiz yox».* Ölkənin az qala 20 faizindən çox hissəsi işğal altındadır. İşğalın düşmən üçün uğurla qurtarması Azərbaycanın Rusiyadan sərt dönüşlə üz çevirməsindən qaynaqlanırdı. Beləliklə, Ermənistan Rusiyanın görünən və görünməyən qüvvələri tərəfindən dəstəklənədi. Düşmənin işğal niyyətlərinə ən müxtəlif vasitələrlə bəraət qazandırmaq meyilləri də üzə çıxdı. Üstəlik, beynəlxalq qurumlar və Qərb işğala qarşı kəskin mövqe tutmadı. Bəs belə bir vəziyyətdə işğala rəvac verən ölkənin nümayəndəsi üçün *«könlü xoş olsun deyə»* şou düzəltməyin nə mənası vardı?

Elə əslində, mənasızlığı ittiham edən müəllif Rusiyanı ironik epitetlərlə - *«doğma, əziz»* epitetləri ilə bəzəməklə öz mövqeyini açıq bildirir.

Doğrudur, Qulu Məhərrəmli sonra V.Şumeykonun hadisələrə Azərbaycan yönümlü münasibəti ilə fərqlənən siyasi liderlərdən olduğunu deyir. Ancaq şərhləri ilə sübut edir ki, V.Şumeyko vəziyyətə təsir göstərmək imkanında deyil. Onun heç bir həlledici rol imkanında olmadığını göstərən Qulu Məhərrəmli təəssüf edir ki, torpağı, yurd-yuvası işğal olunmuş insanları onun qarşısına çıxarıb yazıq, bədbəxt durumlarından istifadə ilə mədhnamə nəğmələri oxutmaq rəzillikdir: *«Nəzərə almaq lazımdır ki, Rusiya mühitində bir siyasi fiqur kimi V.Şumeykonun yalnız yüngül çəki daşları ilə oynamaq imkanları var».* Əlbəttə, Bişkek protokolunun yaradıcısı kimi V.Şumeyko cəlbedici bəyanatlar da verə bilər, azərbaycanlıların istəyi mövqeyindən də danışa bilər. Amma bütün bunlar hərbi siyasi arenada heç nəyi dəyişməyəcək. Bu, Qulu Məhərrəmlinin aydın qənaətidir. Ancaq eyni zamanda, Rusiya XİN-in nümayəndəsi V.Kazimirov başqa cür bəyanatlar verirdi. Qulu Məhərrəmli bütün bunları Şumeyko üçün şou düzəldənlərin üzünə açıq deyir. Və onu da yaxşı bilir ki, bu şounun müəllifləri Azərbaycanda kifayət qədər nüfuzlu mənsəb sahibləridir. Açıq danışmağa görə isə onlar çətin ki, Qulu Məhərrəmlinin başını sığallasınlar. Qulu Məhərrəmli heç onların rəğbətli münasibətinin də fərqində deyil. Ona görə də sözünü kəskin notlarla bitirir: *«Bütün bunları və bir də son vaxtlar sərhədlərdə tez-tez pozulan atəşkəsi nəzərə alsaq, onda Rusiyanın şərəfinə şüarlar deyib onu vəsf etməkdən çəkinməliyik».* Və bu cümlənin fonunda deyəsən, belə bir həqiqət də görünməkdədir. Tarixin indiki vəziyyəti hardasa başqa şəkildə həmin zamana çox bənzəyir. Rusiya yenə qələbə ilə bitmiş 44 günlük müharibədən sonra çətin durumda olan Ermənistanı xilas etmiş və qəbul olunan birgə bəyanatın tələblərinin axıracan həllində israrlı deyil.

**Rusiya-Azərbaycan dialoqu: üzümüz hayanadır.** ***«Yeni dünya», 27 iyul 1995***

Qulu Məhərrəmlinin tarixi şərhlərini (axı bu şərhlərin yazılmasından 26 il vaxt keçib) oxuduqca düşüncənin təhlil süzgəcindən keçirdikcə müəyyən tərəddüdlü qənaətlər də özünü göstərir. Və elə buradaca yadıma düşən bir nüansı da xatırlatmaq istərdim: *«Molla Nəsrəddin»* jurnalının nəşrə başlamasından az qala 120 ilə yaxın vaxt keçir. Amma bu gün də həmin jurnalda dərc olunan felyetonlar Mirzə Cəlil üslubunun sərt, kəskin, tənqidi ruhunu özündə qoruyub-saxlayan məqalələri tarixi möhürü ilə birlikdə olduğu kimi, təkrar çap edirik. Bəzən dövrümüzün ən kəskin probleminə münasibət bildirmək üçün Mirzə Cəlilin tarixi düşüncə məhsulları sözümüzü demək üçün vasitəyə çevrilir. Eləcə də digər cəmiyyəti dəyişmək istəyənlərin düşüncə məhsulları... Beləliklə, Qulu Məhərrəmlinin siyasi-ədəbi publisistika örnəkləri baxmayraq ki, tarixi hadisələri zamanına görə şərh edib, bu gün də sözümüzə qüvvət üçün, fikrimizə dayaq üçün çox dəyərli vasitə ola bilir. Çünki istər H.Zərdabi, istərsə də Mirzə Cəlil və digər klassik jurnalistika ustadları öz yazılarını vətəndaşlıq mövqeyinə güvənərək milli mənafeyi əsas tutaraq yazıya alır və millətə çatdırmaq istəyirdilər.

Bütün hallarda Qulu Məhərrəmlinin yazıları da bu yöndən dəyərlidir. Hələ üstəlik yeni zamanın siyasətində də dumanlı görünən məsələlərin dumanını dağıtmaqda bizə yardımçı ola bilər.

Qulu Məhərrəmlinin növbəti yazısında da Rusiya-Azərbaycan münasibətlərinə işıq salınır. Və əlbəttə, Qulu Məhərrəmli hər hansı bir problemə demokratik yanaşması ilə münasibət bildirir. Şübhəsiz, o, yaxşı bilir ki, Rusiya-Azərbaycan əlaqələri artıq tarixi köklərə bağlıdır. İqtisadi, mədəni, həmçinin siyasi əlaqələr həm Azərbaycanın siyasi-iqtisadi həyatında, həm də mədəni, mənəvi həyatında o qədər sıxdır ki, bu əlaqələri birdən-birə kəsmək çox kəskin fəsadlar törədə bilər. Amma uzaqgörən şərh ustadı kimi Qulu Məhərrəmli bütün bu məsələlərin hamısını nəzərə alır. Və əslində, həm də onu təlqin edir ki, keçidlərdən ehtiyatla adlamaq salamatlığın birinci şərtidir.

***(Davamı 6-cı səhifədə)***

*(Əvvəli 4-cü səhifədə)*

# 3. Açıq danışmaq cəsarəti

Amma eyni zamanda biz yalnız Rusiya ilə bağlı olaraq qala bilmərik. Elə bu səbəbdən də o, *«üzümüz hayanıdır?»* sualını qoyur və bu suala cavab üçün düşüncələrini oxucuları (dinləyiciləri) ilə birbaşa bölüşür: *«Əlbəttə, Azərbaycan rəhbərliyinin Rusiyanın diplomatik cəbbəxanasında olan məkrli vasitələr haqqında kifayət qədər məlumatlı olması şübhə doğurmur. Lakin Rusiyanı birdən-birə rədd etmək çox ciddi fəlakətlərə səbəb ola bilər. Ancaq eyni zamanda soyuqqanlıqla Rusiyaya yaxınlaşmaq meyilləri və guya onunla oyun oynamaq taktikası da eyni dərəcədə zərərlidir. Çünki Rusiyanın çaldığı havaya oynamaq Azərbaycanı, ilk növbədə, Qərbdə az-çox qazandığı müstəqil dövlət imicindən məhrum edə bilər. İkincisi, bu addım reallaşdırılması hələ də çoxlarına xəyal kimi görünən neft müqaviləsinin taleyində də mənfi iz qoyar. Ən başlıcası isə, Azərbaycanın Rusiyaya həddindən artıq yaxınlaşması, xüsusən, ABŞ-la diplomatik birlik yaratmaq üçün fürsət gözləyən Ermənistanın əl-qolunu aça bilər. Həm də yaddan çıxarmaq olmaz ki, Rusiya ilə ehtiyatsız yaxınlaşmalar İslam ölkələri arasında Azərbaycanın nüfuzuna təsir göstərə bilər»*. Göründüyü kimi, müəllif Azərbaycanın yerləşdiyi geosiyasi vəziyyəti həmişə diqqətdə saxlayır. Demək, anlaşılır ki, bizim Rusiya ilə əlaqələrimiz nə qədər düzgün qurulmalıdırsa, bir o qədər də İslam ölkələri ilə düzgün qurulmalıdır.

Azərbaycanın qonşu ölkələrlə münasibətləri təkcə siyasi məqsədlər güdmür. Şumanist, mədəni əlaqələr də çoxəsrlik tarixə malikdir. Təəssüf ki, bir çox İslam ölkələri 44 günlük müharibədə də Ermənistana dəqiq və aydın münasibət bildirmədi. Bir çox hallarda bizə dua payı versələr də Ermənistana silah göndərməkdən də çəkinmədilər. Bu da istər-istəməz Qulu Məhərrəmlinin siyasi şərhlərində nə qədər uzaqgörənlik mahiyyəti daşıyırsa, bir o qədər də açıq danışmaq cəsarəti əsas olur.

Sözünün sonunda maraqlı təklif verir: *«Deməli, Rusiya ilə münasibətlərdə Azərbaycan elə yanaşma və ünsiyyət modeli seçməlidir ki, yuxarıda göstərilən arzuolunmaz bəlalardan xilas ola bilsin. Hələlik isə Rusiya ilə Azərbaycan arasında intensiv dialoq gedir. Bu dialoqun doğurduğu sual isə hələ də aktual olaraq qalır: «Üzümüz hayanadır: Şimala, yoxsa Qərbə?»* Və bizə bircə kəlmə söz demək imkanı qalır: Sual yenə aktualdır.

**General Lebedin Qafqazda sülh arzuları.** *Bu arzuların çiçək açması şübhə altındadır* ***«Bakı», 24 sentyabr 1996.***

Maraqlıdır ki, Qulu Məhərrəmli Rusiya ilə bu və ya digər dərəcədə bağlı olan münaqişə zonaları haqqında danışanda ayrı-ayrı nüfuz sahibi olan hərbçiləri və yaxud siyasətçiləri yazısının baş qəhrəmanı kimi seçsə də, əslində, bu baş qəhrəmanların təmsil etdiyi ölkənin siyasətinə işıq salır. Bu yazıda da zahirən sülh göyərçini obrazını xatırladan A.Lebedlə bağlı Çeçenistan məsələsindən danışır. Onun Çeçenistana həqiqətən sülh gətirə biləcəyini müxtəlif ehtimallarla xarakterizə edir. Heç də o fikirdə olmur ki, Rusiya səlahiyyətlisi olan general Lebed çeçenləri öz arzusuna qovuşduracaq. İstər-istəməz Qulu Məhərrəmlinin adlarını çəkdiyi, yaxud çəkmədiyi digər obrazlar da yada düşür. Gövhər Dudayev, Aslan Məshədov, Şamil Basayev və Azərbaycanda adı qara rəngdə xatırlanan V.Polyaniçko və digərlərinin məsələyə nə dərəcədə daxil olub-olmamasından asılı olmayaraq Çeçenistan məsələsini Rusiya elə russayağı həll elədi. Əslində, Qulu Məhərrəmli bu yazı ilə sanki general Lebedin də faciəsini təqdim edir: *«Hələlik görünən odur ki, sərt siyasətçi general Lebed Qroznıya sülh göyərçini kimi qayıdır. Hələlik onun ən böyük uğuru Çeçenistanda düşmən tərəflər arasında atəşkəsi bərqərar etməsidir. Qarşı-qarşıya duran tərəflər məhz generalın şəxsində sülhün başlıca təminatçısını görürlər. Amma burada müəmmalı məsələlər çoxdur. Məsələn, Rusiya doğrudanmı Qafqazda sülh istəyir? İstəyirsə, niyə qoşunlarını çıxarmır? Bəs bu proses nə vaxtadək uzanacaq? Rusiya atəşkəslə vaxt udmağa, hiylə işlətməyə çalışmır ki? Hərbi elita Lebedi qurban verməyəcək ki?»* Qulu Məhərrəmlinin şərhlərini oxuduqca və onun qoyduğu suallar üzərində düşündükcə mənim gözlərimin önündə Rusiya sülhməramlılarının Qarabağdakı hərbi lideri Rüstəm Muradovun obrazı canlanır. Və eynilə Qulu Məhərrəmlinin qoyduğu sualları bu gün Rüstəm Muradov üçün də təkrarlamaq bu günün sözü kimi yerinə düşür. Əslində, açıq danışan publisist ziddiyyətin yaranmasında tarixi xidmətləri olan ölkələrin dəst-xəttinin şərhini verməklə bu günün özündəki durumdan da ehtiyatlanmaq amilini diqqətə çəkir. Həqiqəti açıq deyə bilən publisistin siyasi fikir yaradıcılığı yalnız tarixi əhəmiyyət daşımır. Onun düşüncələri günümüz üçün də müasir səslənməkdə davam edir.

**Erməniləri Qarabağdan qovmaq pis təklifdi...** ***«Yeni dünya», 30 sentyabr 1996***

44 günlük müharibənin Azərbaycan xalqının tarixi taleyindəki rolunu və yerini nəinki yaxın gələcəkdə, hətta uzaq gələcəkdə də tarixçilər, siyasətçilər, ədəbi-bədii söz ustadları təkrar-təkrar xarakterizə edəcək, bu hadisələrə öz baxışları ilə münasibət bildirəcəklər. Qulu Məhərrəmli isə sanki bu günün hadisələrinə hələ 25 il bundan əvvəl çox aydın bir cavab verib. Onun münasibəti qoyduğu tezisdə açıq-aşkar bilinir. Doğurdanmı, Qarabağdan erməniləri tamamilə qovmaq asandır və həm də vacibdir? 44 günlük müharibədə qələbənin Ali Baş Komandanı dəfələrlə dünyaya həm müharibə dövründə, həm də müharibədən sonra təkrar-təkrar bildirdi ki, bizim məqsədimiz erməniləri Qarabağdan qovmaq deyil, bizim məqsədimiz Qarabağı azad etməkdir, işğalçı qüvvələri zərərsizləşdirmək, tərksilah etmək, Qarabağdan çıxarmaqdır. Dil pəhləvanları isə bu gün də iddia edirlər ki, Azərbaycan ordusu gərək müharibəni axıracan davam etdirəydi. Axıracan davam etdirmənin hansı fəsadları yarada biləcəyini və bu məsuliyyəti kimin daşıyacağını qətiyyən demirlər. Amma Qulu Məhərrəmli bu gün bir çox hallarda kəskinliyi ilə dil pəhləvanları tərəfindən qoyulan həmin suala 25 il əvvəl cavab verib, özü də çox düzgün cavab verib.

Biz bu qeydlərin ideya istiqamətini cəmiyyətlə opponent məsələsi üzərində qurmuşuq. Yəni cəmiyyətlə açıq danışmağın nə dərəcədə mümkünlüyün və faydasını izah etmək, bu yöndə publisistin cəmiyyətin həyatına, düşüncə mühitinə göstərdiyi təsiri, faydanı açıqlamaq istəyimiz olub.

Qulu Məhərrəmli yaxşı bilir ki, erməniləri Azərbaycandan qovmaq ideyasını tənqid etməklə, özü də sərt və açıq tənqid etməklə hansı mənəvi-psixoloji təzyiqlərlə qarşılaşacaq... buna baxmayraq yazır: *«Bişkek protokolunun imzalanmasından sonra Azərbaycanda çoxları Qarabağ ermənilərinin siyasi mövqelərinin daha da möhkəmlənməsi barədə düşünür, indiki proseslərin erməni icması üçün müstəqilliyə qovuşmağa yol açdığını iddia edirdilər. Əlbəttə, son iki ildə cərəyan edən hadisələr belə düşünməyə müəyyən əsaslar verir və o səbəbdən də cəmiyyətdə ermənilərə qarşı tez-tez radikal şüarlar, çağırışlar səslənir. Belə çağırışlar zaman-zaman gündəmə gəlir, adamların beynini bir müddət məşğul edir, sonra da unudularaq gedir və meydana tamamilə yeni şüarlar çıxır. Bu günlər Azərbaycan mətbuatında Qarabağ probleminin «həlli» ilə bağlı qatı millətçilərin bəzəkli çağırışları yenə də gündəmi zəbt etməyə başlayıb. Bu çağırışlar arasında ən arzu olunmayanı Qarabağa qəflətən hücum etmək və erməniləri ordan qovmaqla bağlıdır. Nə qədər sadə və sadəlövh bir plan...»* Doğrudan-doğruya Qulu Məhərrəmlinin özünün dediyi kimi, məsələnin siyasi cəhəti bir tərəfə, bəs beynəlxalq öhdəliklər necə olacaq? Özü də erməniləri Qarabağdan qovmaq şüarı daha çox kütləvi xarakter alırsa, bunun hansı fəsadları ola bilər? Ona görə də publisist qarşılaşacağı mənəvi-psixoloji təsirləri göz altına alaraq cəsarətli açıqlamalarını davam etdirir. ...Həqiqətən də 25 il bundan əvvəl Azərbaycan hərbi cəhətdən Qarabağı işğal edən qüvvələri qovmaq gücündə idimi? Üstəlik, həmin dövrdə Azərbaycan həqiqətləri beynəlxalq arenada kifayət qədər özünə tərəfdar yığmışdımı? Əlbəttə, bu sualların heç birisinə birmənalı cavab vermək mümkün deyil. Qulu Məhərrəmlinin şərhlərinin davamını izlədikcə Azərbaycan Prezidentinin müharibə dövründəki müsahibələrindəki ideyalar birər-birər gözlərimizin önündən keçir. Azərbaycan ictimaiyyəti ilə üzbəüz danışanda da prezident deyirdi ki (və həm də indi deyir), biz dinc əhalini inandırmalıyıq ki, onlarla heç bir işimiz yoxdur. Və onlar Azərbaycan vətəndaşlığına tabe olub yaşamaq istəsələr hər cür şərait yaradılacaq. Qulu Məhərrəmlinin 25 il əvvəl dediyini diqqətə çəkməklə onun düşüncə üfüqlərinin nə qədər geniş olduğunu da təsəvvür edə bilərik: *«Hazırda reallıq bundan ibarətdir ki, arxasında Rusiyanın dayanıb silahlandırdığı ermənilər hərbi cəhətdən bizdən güclüdür. Elə isə biz bu şəraitdə hansı addımları atmalıyıq? İtirilmiş Qarabağı geri almaq üçün biz nə etməliyik? Məncə, bunun üçün, ilk növbədə, Stepanakertdəki dinc erməni əhalisini inandırmalıyıq ki, bizim onları deportasiya etmək fikrimiz yoxdur. Onlar bilməlidirlər ki, biz Ermənistana düşmən deyilik və beynəlxalq hüquqlara hörmət edib pis keçmişi unutmuşuq. İkincisi, Azərbaycan Dağlıq Qarabağ ermənilərinə öz iqtisadi, mədəni hüquqlarını həyata keçirmək üçün təminat verməyə hazır olduğunu bəyan etməli, demokratik institutları gücləndirməlidir».* Hər halda bu açıq düşüncələri ilə Qulu Məhərrəmli öz opponentlərinə də məsələyə təmkinlə yanaşmaq imkanı verir. Səhv olsa belə, düşüncələrində səmimi olan etirazçıları qətiyyən damğalamır. Öz sözlərinin də Quran ayəsi olmadığını, hətta özünün də səhv edə biləcəyini açıq deyir. Və nəhayət, onu da deyir ki, *«bəlkə, sabah yeni və fərqli hərbi-siyasi şərait yaranacaq və onda Bakının əl-qolu açılacaq».* Nə qədər dəqiq, nə qədər uzaqgörən və tarixin doğruluğunu təsdiq etdiyi uğurlu düşüncə elementləri...

Qulu Məhərrəmli bu yerdə bir fikir də deyir: *«Bu məsələdə Rusiyanın əli olmadan aparılan əməliyyat fəlakət deməkdir».* Doğru mülahizələrdir. Bu mülahizənin də həyati gerçəklik olduğunu tarix sübut elədi. Üstəlik, Qulu Məhərrəmli sözünün sonuna doğru bu yazısında da açıq danışmaq cəsarətini daha da qüvvətləndirir. Görün, düşüncələrini necə yekunlaşdırır. *«Biz kimlərisə qovmaq haqqında yox, onları necə zərərsizləşdirmək haqqında düşünməliyik. Belə olmasa, nəhənglərin ayağı altında qala bilərik».* Bu da Qulunun açıq fikir savaşında dönməzliyinin təsdiqidir.

Cəmiyyət və opponent problemi... Qulu Məhərrəmlinin timsalında, zənnimizcə, belə bir mülahizə də yerinə düşər. Əgər opponent kifayət qədər hazırlıqlıdırsa və özünü ifadə imkanına malikdirsə, onunla cəmiyyət arasında heç bir problem olmayacaq. Demək, problemi açıq danışmaq cəsarəti həll edir.

***06.08.2021***

